## Xüsusi karantin rejimi dövründə ümumi təhsil müəssisələrində illik planlaşdırmaların hazırlanmasına dair metodik göstərişlər

### 1. Ümumi müddəalar

**1.1**. COVİD-19 pandemiyası ilə əlaqədar olaraq, "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli 312 nömrəli Qərarına əsasən, ümumtəhsil məktəblərində 2020/2021-ci tədris ilinin əyani formada başlanması aşağıdakı tarixlərdə nəzərdə tutulur:

**1.1.1.** ümumi təhsilin məktəbəhazırlıq mərhələsi (5 yaş) üzrə – 2020-ci il oktyabrın 1-dən;

**1.1.2.** ümumi təhsilin ibtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə – 2020-ci il sentyabrın 15-dən;

**1.1.3.** ümumi təhsilin ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə – 2020-ci il oktyabrın 1-dən;

**1.1.4.** ümumi təhsilin tam orta təhsili səviyyəsi (X-XI siniflər) üzrə – 2020-ci il oktyabrın 15-dən.

**1.2.** V-XI siniflərdə 2020-ci il sentyabrın 15-dən distant (məsafədən) formada dərslərin keçilməsi planlaşdırılır.

**1.3.** Təhsilalanların sıxlığı yüksək olan təhsil müəssisələrində sinif otağında sosial məsafənin (1,5 m) gözlənilməsi məqsədilə siniflər yarımqruplara bölünür.

**1.4.** Göstərilən bəndlər təlimin təşkilində müəllimin fəaliyyət planında (illik və cari planlarda) müvafiq dəyişikliklərin aparılmasını zəruri edir.

### 2. Təlimin təşkilinin planlaşdırılması

**2.1**. 2020/2021-ci tədris ilində müəllimlər əvvəlki illərdən fərqli olaraq ənənəvi fəaliyyət planlarında (illik və cari planlarda) bu göstərişin 2.3. və 2.4. bəndlərinə əsasən müvafiq dəyişikliklər aparır.

**2.2.** Müəllim dərs ilinin əvvəlində illik planlaşdırmaya ötən tədris ilindəki məzmunu, xüsusilə mart-iyun aylarında distant şəkildə tədris olunan məzmunu təkrarlamaq üçün müvafiq saatlar ayırır. Bu zaman müəllim üçün metodik vəsaitdə verilmiş istiqamətverici illik planlaşdırma nümunələrinə istinadən tədris planında nəzərdə tutulmuş dərs saatlarını saxlayır.

**2.3.** Təkrar dərslərin fənn və siniflərə görə saat miqdarı aşağıdakı kimi planlaşdırılır:

**2.3.1.** V-XI siniflərdə təbiət-riyaziyyat fənlərinin hər birinə (riyaziyyat, informatika, fizika, kimya, biologiya, coğrafiya) 4-5 saat; humanitar fənlərin hər birinə (Azərbaycan dili, ədəbiyyat, tarix və s.) isə 2-3 saat təkrarın verilməsi nəzərdə tutulur.

**2.3.2.** I siniflərlərdə Azərbaycan dili, riyaziyyat fənlərinin dərs saatı hesabına 2 həftə məktəbəhazırlıq mərhələsində keçirilmiş məşğələlərin, II-IV siniflərdə isə Azərbaycan dili və riyaziyyat fənlərindən 4-5 saat təkrarın verilməsi nəzərdə tutulur.

**2.3.3.** Tədris ilinin əvvəlində təkrar dərslərin cari ilin mart-iyun aylarında tədris olunmuş mövzular əsasında keçirilməsi mütləq nəzərə alınmalıdır.

**2.4.** İllik (yarımillik) planlaşdırma tərtib edilərkən:

**2.4.1.** İbtidai siniflərdə yaxın mövzular birləşdirilir. Mövzuların birləşdirilməsi Pedaqoji şuranın və ya metodbirləşmənin qərarı ilə rəsmiləşdirilir.

**2.4.2.** V-XI siniflərdə ümumiləşdirici və təkrar dərslərə ayrılan saatlar ixtisar edilir.

**2.5.** Fənlər üzrə həftəlik dərs saatlarının əyani və ya distant (məsafədən) formada bölgüsü xüsusi karantin rejimi dövründə uyğunlaşdırılmış tədris planlarına əsasən aparılır.

**2.6.** Yeni dərsin, bölmənin ilk 15 dəqiqəsi diaqnostik qiymətləndirməyə ayrılır.

**2.7.** İllik (yarımillik) planlaşdırma tərtib edilərkən dərslərin tədris planında göstərilmiş saata uyğun əyani və distant (məsafədən) keçirilməsi nəzərə alınır.

**2.8.** Lisey və gimnaziyaların tədris planlarına Pedaqoji şuranın qərarı ilə müvafiq dəyişikliklər edilə bilər.

**2.9.** Dərslikdəki mövzu və tapşırıqların əyani və ya distant (məsafədən) tədris olunması məsələsi metodbirləşmənin müzakirəsinə çıxarılaraq kollegial qərar qəbul edilir.

**2.10.** Əyani dərslərin müddəti 45 dəqiqə, distant (məsafədən) dərslərin müddəti 30 dəqiqəyə qədər planlaşdırılır.